# Xalqını zəmanənin və tarixin fövqünə yüksəldən




# MÜZƏFFƏR LİDER

Milli xüsusiyyətləri və çoxəsrlik ənənələri nəzərə aldıqda bəlli olur ki, lider və liderlik məfhumu dövlət quruculuğunda mühüm rol oynayır. Azərbaycanın iqtisadi-siyasi yüksəlişi ona rəhbərlik edən liderlə bilavasitə bağlıdır. Qızıl Arslanı, Atabəyi, Şah İsmayıl Xətaini, Atatürkü, Heydər Əliyevi bir-birindən yüz illər ayırsa da, onlar xalqımızın yaddaşında müdrik lider və şəxsiyyət kimi qalırlar.

*Prezident İlham Əliyev siyasi liderə xas dünyagörüşü, şəxsi qabiliyyəti, praktik fəaliyyəti və dövlət adamına xas məsuliyyəti sayəsində öz nüməsi və sözü ilə xalqı birləşdirdi, quruculuq və vətənpərvərlik ruhu formalaşdırdı.*

Bütün dövrlərdə və cəmiyyətlərdə liderlik üçün vacib olan ümumi prinsiplər mövcuddur. Hüquqi, demokratik dövlət quruculuğuna malik müasir və müstəqil Azərbaycanın geosiyasi vəziyyətindən, çoxmillətli tərkibindən, dinamik inkişafından, Cənubi Qafqazdakı qlobal münaqişələrdən çıxış edərək hazırkı şəraitdə lider hərtərəfli dünyagörüşə, geniş bilik dairəsinə, daxili mütəşəkkilliyə, istənilən anda qeyri-adi qərar qəbul etməyə, kataklizmlərdən və böhranlı vəziyyətlərdən optimal çıxış yolu müəyyən etməyə qadir insan olmalıdır. Bundan əlavə, liderin xüsusilə yüksək məhsuldar fəaliyyəti, öncəgörmə intuisiyası və güclü hissetmə qabiliyyəti olmalıdır.

Məşhur Azərbaycan filosofu, mütəfəkkiri Nəsirəddin Tusinin 770 il əvvəl verdiyi tövsiyələr bu gün də olduqca əhəmiyyətlidir. Böyük filosofa görə, insan sağlamlığı dörd ünsür arasındakı tənasüblükdə olduğu kimi, cəmiyyət arasında uyğunluq da dörd sinfin qarşılıqlı fəaliyyətində və dövlətin dörd qisim siyasətlə idarəçiliyindədir. Ölkənin ədalətli idarə olunması üçün Aristotelin bu ideyaları bütün dövrlər üçün yetərlidir: ölkə siyasəti, qələbə siyasəti, kəramət siyasəti və camaat siyasəti. Siyasətlər siyasəti adlanan bu cür siyasətlə idarə olunan ölkə "azadlıq şəhəri", cəmiyyət azad cəmiyyət, xalq isə azad xalq adlanır. Bütün hallarda ölkənin gücü, möhkəmliyi liderə, liderin qüdrəti, möhtəşəmliyi siyasətə, siyasətin davamlılığı isə ədalətə bağlıdır. Ona görə də demokratik cəmiyyətlərdə lider və dövlət xalqın arzu və istəklərinin reallaşdırıcısı olur. Bir sözlə, klassik filosoflar, mütəfəkkirlər, alimlər və dahi siyasətçilər ideal lider modelini belə ifadə edirlər: o ağıllıdır, ölkənin və xalqın böyüklüyü haqqında konstruktiv ideyalarla zəngindir, parlaqdır, xalqın qorunmasına görə üzərinə xüsusi məsuliyyət götürməklə və onun bütün həyati maraqlar sistemini nəzərə almaqla məqsədlərə doğru onunla birlikdə gedir.

Liderlərin xalqın düşüncə və ideologiyasına təsirinin çox güclü olduğu tarixdən məlumdur. O, tarixi şəxsiyyətlərin təsiri güclü olub ki, onlar yalnız xalqın düşüncəsində mövcud olanları üzə çıxarıb, ifadə edib, həyata keçirib və ya öz dövrünün dumanlı şəkildə təsvir edilən, dərk edilməsində çətinliklər olan ideyalarının aydın və dəqiq şərhini verməklə reallaşdırıb, əvvəl əldə olunanlara obyektiv yanaşmaqla böhran mühitində yaranan yeni ideyaların optimal həll alqoritmini müəyyən edib. Belə tarixi şəxsiyyətlər bəşəriyyətin çoxəsrlik təkamülü prosesində öz millətini və xalqını zəmanənin və tarixin fövqünə yüksəldə bilib.

Dövr dəyişdikcə liderlər üçün meyarların bəzi prioriteti də dəyişsə də, əsas istiqamətlər dəyişməz qalır. Böyük sərkərdə, fateh, natiq, filosof, ideoloji rəhbər, qurucu və yaradıcı dövlət adamı tarixin yaddaşına həmişəlik həkk olunmaqla dərin sosial və mədəni-mənəvi iz qoyur. Bunlar adətən iki qrupa ayrılır. Birincisi ölkələr fəth etmiş, müharibə dalğalarında yüksəlmiş şəxsiyyətlər - sərkərdələrdir. İkincisi isə müharibələrsiz, böyük sosial-iqtisadi islahatlarla uğur qazanan və cəmiyyətin tərəqqisinə daha çox təkan verən şəxsiyyətlərdir. Bu əlamətlərin toplusunu özündə formalaşdıran şəxsiyyətlər çox azdır.

Atatürkün xidmətləri bu qəbildən çox mühüm örnəkdir. Öncə Birinci Dünya müharibəsində Osmanlı İmperiyasının süqutundan sonra militaristlərə qarşı yeni bir hərb başladı. Nəticədə işğalçı qoşunları türklər yaşayan ərazilərdən çıxarmaqla həmin ərazidə yeni bir dövlətin yaradılmasına nail oldu. Atatürkün böyüklüyü onda idi ki, hərblə başladığı işi quruculuqla başa çatdıra bildi. Bu yöndə Atatürkün bir fikri çox yerinə düşür: "Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır".

Aydın olur ki, məhz həmin liderlərin sərkərdəlik, sosial-iqtisadi quruculuq və ictimai islahatları aparmaq məharəti nəticəsində güclü dövlət yaradılır, sosial-iqtisadi təminat, mənəvi mütəşəkkillik əldə olunmaqla cəmiyyət qabaqcıl inkişaf səviyyəsinə yüksəlir. Tarixə nəzər salsaq, görərik ki, baş vermiş hadisələrlə yanaşı, açılan imkanlar, lokal, regional və ya qlobal şanslar da vaxtında gerçəkləşdiriləndə uğurlar daha böyük olur. Bunun üçün də dövlətçiliyi ümumxalq işinə çevirməyi, xalqı öz arxasınca aparmağı bacaran, dövlətçiliyin müdafiəsini təşkil etməyi əməli surətdə həyata keçirən praktik siyasətçi-diplomat, sərkərdə, ölkə daxilində əmin-amanlığı, iqtisadi inkişafı təmin edən qurucu rəhbər, dövlətin, xalqın strateji perspektiv mənafeyini beynəlxalq forumlarda, yüksək tribunalardan müdafiə edə bilən şəxsiyyət olmalıdır. Tarixdə böyük şəxsiyyət kimi qalmanın səbəbləri də bunlardır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin müstəqillik əldə etməsi üçün yaranmış tarixi şans da düzgün dəyərləndirilməli idi. Lakin həmin vaxt məsuliyyətsiz, təcrübəsiz və populist şəxslərin hakimiyyətdəki əməlləri sayəsində ölkəmiz sosial-iqtisadi böhranla üzləşərək dərin uçurum qarşısında qaldı. Yalnız böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın prezidenti seçildikdən sonra müstəqil dövlət təsisatları yaranmağa, dövlət quruculuğu prosesi böyük vüsət almağa başladı və bununla da müstəqillik möhkəmləndi, dönməzliyi təmin edildi, demokratik prinsiplər bərqərar olmağa başladı. İndi biz dövlətçiliyin keyfiyyətcə yeni tərəqqi dövründəyik. Bu prosesdə ümummilli inkişaf naminə milli dövlətlə bağlı olmaq, onun ağrı-acısını bölüşmək, fərddən vətəndaşa çevrilmək mühüm şərtdir. Dövlətçiliyin möhkəmləndirilməsi üçün hüquqi müstəvidə olan vətəndaşlıqla məzmun müstəvisində olan vətəndaşlıq ahəng təşkil etməlidir. Ulu öndərin bu barədə olan fikirlərini xatırlayaq: *"Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar".*

Məhz bu prinsiplərlə də 1993-cü ildən Azərbaycanda bütün atributlara malik güclü dövlət yaradılması ənənələri bu gün də uğurla davam edir.

Bir az əvvəl qeyd etdiyimiz kimi, yaranmış tarixi şans düzgün qiymətləndirilməlidir. Dördüncü sənaye inqilabı kimi xarakterizə olunan, rəqəmsal texnologiyalar əsri adlanan yaşadığımız əsr səhv etməyə qəti şans vermir. Xalqımız 2003-cü il oktyabrın 15-də öz xilaskarı, əbədiyaşar lider Heydər Əliyevə sadiq qalaraq onun başladığı işin davamına səs verməklə müstəsna seçim etdi. Həmin il oktyabrın 31-də andiçmə mərasimindəki nitqində cənab İlham Əliyev demişdir: *"...Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir... Mən bu böyük etimadı doğruldacağam, bu vəzifənin öhdəsindən layiqincə gələcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".*

Üçüncü minilliyin müasir çağırışlarını da nəzərə alsaq, demək olar ki, ümummilli lider Heydər Əliyevin siyasi və sosial-iqtisadi kursunu davam etdirmək üçün müstəsna qabiliyyətlər tələb olunurdu - quruculuq istedadı, böhranlı və münaqişəli vəziyyətlərdən optimal çıxış yolu tapmaq bacarığı, hadisələrin inkişafının mürəkkəb burulğanında operativ münasibətlə ölkənin və xalqın xeyrinə qərarlar vermək məharəti.

Prezident İlham Əliyevin andiçmədən sonra qarşısına qoyduğu genişmiqyaslı və çoxşaxəli məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- **dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün iqtisadi inkişafın yüksək sürətinin təmin edilməsi;**
- **xalqın sosial rifah halının yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması;**
- **beynəlxalq aləmdə uğurlu xarici siyasətlə milli maraqların təmin edilməsi;**
- **Silahlı Qüvvələri qabaqcıl texnoloji ilə modernləşdirməklə Vətənimizin müdafiəsinin gücləndirilməsi;**
- **Azərbaycanın ərazi bütövlüyünün bərpası;**
- **ölkəmizin inkişaf etmiş dövlətlər səviyyəsinə çatdırılması və s.**

Bu məsələləri həll etmək üçün Prezident İlham Əliyev siyasi liderə xas dünyagörüşü, şəxsi qabiliyyəti, praktik fəaliyyəti və dövlət adamına xas məsuliyyəti sayəsində öz nümunəsi və sözü ilə xalqı birləşdirdi, quruculuq və vətənpərvərlik ruhu formalaşdırdı.

İlk dövrlər ölkədə ictimai-siyasi sabitliyi bərqərar etmək üçün ictimai təsisatlar hüquqi və təşkilati baxımdan təsbit olundu, Prezidentlik İnstitutu möhkəmləndi, əlavə tədbirlər nəticəsində daxili sabitlik təmin edildi. Ölkə vətəndaşlarının hakimiyyətə yüksək etimadı yarandı. Bununla da respublikada normal əmək ritmini pozmaq üçün radikal müxalifətin xaos, anarxiya yaratmaq cəhdləri tamamilə aradan qaldırıldı və ümumi inkişafa start verildi.

Prezident İlham Əliyevin 2003 ("Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında") və 2004-cü il tarixli ("Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramının təsdiq edilməsi haqqında (2004-2008") fərmanları ölkəmizin innovativ texnologiyalar əsasında müasirləşdirilməsinə və modernləşdirilməsinə yönəlik sosial-iqtisadi inkişafının tempini müəyyən etdi. Rəqəmsal və yeni kommunikasiya texnologiyaların geniş tətbiqinə üstünlük verilməklə müasir nəqliyyat qovşaqlarının, yolların, körpülərin inşası, məktəblərin və tibb müəssisələrinin təmiri, tikinti işləri, müasir rabitə sistemlərinin yaradılması, bir sözlə, şəhərlərin və kəndlərin yenilənməsi geniş vüsət aldı. Aparılan islahatlar sayəsində ölkəmizin siması kökündən dəyişməyə başladı. Bu gün hətta ən ucqar regionlar abadlığına, memarlığına və gözəlliyinə, sosial-iqtisadi və mədəni inkişafına görə inkişaf etmiş ölkələrin uyğun regionları ilə müqayisədə geri qalmır.

Ölkədə uğurla həyata keçirilən genişmiqyaslı transmilli islahatlar, layihələr dövlət sektoru ilə yanaşı, özəl sektorun da inkişafına təkan verdi. Artıq 2005-ci ildə ümumi daxili məhsul müstəqilliyin ilk illərindəki səviyyəsindən təxminən 10 faiz çox olmuşdur. Həmin dövrdə ABŞ dövlət katibinin Avrasiya regionunda münaqişələr və Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi S.Mann Azərbaycan Prezidentinin fəaliyyəti haqqında demişdi: "Hesab edirəm ki, ölkədə siyasi islahatlar davam etdiriləcək, neftdən alınan gəlirlər sıravi vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldiləcək".

2003-cü ilin bir çox göstəricilərini son illərin göstəriciləri ilə müqayisə etsək, bu fikirləri tam əsaslı hesab etmək olar: ÜDM - 3,5 dəfə, büdcə gəlirləri təxminən 20 dəfə, xarici valyuta şəklində ehtiyatlar təxminən 30 dəfə və s. artıb. İşsizlik səviyyəsi (faizlə) təxminən 2 dəfə, yoxsulluq səviyyəsi (faizlə) təxminən 10 dəfə azalıb.

Ötən illərdə dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli nəqliyyat layihələri həyata keçirilib:

- **BTC əsas neft ixrac kəməri;**
- **Bakı-Tbilisi-Ərzurum qaz kəməri;**
- **təməli 2014-cü ildə qoyulan Cənub Qaz Dəhlizi layihələri;**
- **CQD-nin tərkib hissələri olan TAP, TANAP;**
- **Bakı-Tbilisi-Qars dəmir yolu və s.**

Bu gün Azərbaycan kosmik ölkələr klubunun üzvüdür. Dünyada belə ölkələrin sayı çox deyil. Azərbaycan 2013-2014 və 2018-ci illərdə telekommunikasiya peyklərini orbitə çıxarmaqla böyük inkişafın geniş məkanı olan müasir panoramanı yaratdı. Peyklərdən ikisi telekommunikasiya, biri isə yer səthinin müşahidəsi üçündür. Avropanı Asiya ilə birləşdirən beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasına başlanılıb. Böyük siyasi, iqtisadi və strateji əhəmiyyət kəsb edən bu beynəlxalq layihələri reallaşdırmaqla Azərbaycan çox mühüm tranzit və logistika mərkəzinə çevrilir.

Həyata keçirilən layihələrin beynəlxalq miqyasına görə əhəmiyyəti çox böyükdür. Onlardan biri də 2017-ci ildə fəaliyyətə başlayan Xəzər dənizində ən iri beynəlxalq liman - Ələt Dəniz Ticarət Limanı və onun sərbəst iqtisadi zonasıdır. Sosial sahədə islahatlar isə inqilabi xarakter daşıyır. Pensiyalar, əlilliyə görə müavinətlər, təqaüdlər, əməkhaqları dəfələrlə artıb. Şəhid ailələri, qazilər, veteranlar xüsusi qayğı ilə əhatə olunub. Onlara mənzillər, minik avtomobilləri verilib.

Vətəndaşlarla dövlət qulluqçuları arasında korrupsiya faktları yarada biləcək halları aradan qaldırmaq üçün 2012-ci ildə ölkəmizdə indi də çox populyar olan "ASAN xidmət" işə salındı. Prezident İlham Əliyevin islahatlara yanaşma prinsipi təkcə köhnə təsisatları təmin etməklə kifayət etmirdi, lazımi vaxtda və məkanda yeni təsisatlar yaratması ölkəmizə prioritet gətirirdi. İctimai və sosial xidmətlər sahəsində institusional islahatlarla əhaliyə göstərilən xidmətləri vahid sistem şəklində birləşdirən "ASAN xidmət" və DOST Azərbaycan brendinə çevrilib.

2014-cü ildən sonra Azərbaycanda iqtisadiyyatı şaxələndirməklə əsaslı islahatlara başlandı. Əsasən iqtisadi, məhkəmə-hüquq, sosial və kadr islahatları istiqamətləri üzrə aparılan işlər, həyata keçirilən uğurlu antiböhran tədbirləri təbii ehtiyatlarla zəngin digər ölkələrlə müqayisədə daha səmərəli oldu. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan aparılan islahatların sayına görə 2019-2020-ci illərdə dünyada ən iri islahatçı ölkələr sırasında yer aldı. Dünyada baş verən sarsıntılar fonunda dərin struktur islahatlarına ehtiyac duyan ölkə başçısı 2016-cı ildə kompleks islahatların növbəti mərhələsini başlatdı. Əsas hədəf islahatların davamı və daha səmərəli idarəetmə sisteminə keçid olan strateji yol xəritəsi qəbul edildi. Bu, şəffaflığı artırmağa, əhalinin sosial problemlərinin həllinə, biznes maraqlarını təmin etməyə, məsrəfləri azaltmağa, dövlət xidmətlərinin keyfiyyətini yaxşılaşdırmağa imkan verdi. Nəticədə Azərbaycanın beynəlxalq reytinqlərdə mövqelərinə müsbət təsir etdi. Dünya Bankı tərəfindən dərc edilmiş "Doing Business 2020" reytinqində Azərbaycan islahatçı ölkələrin ilk iyirmiliyinə daxil oldu. Dünya İqtisadi Forumu tərəfindən dərc edilmiş qlobal rəqabətqabiliyyətlilik indeksinə görə (2019) Azərbaycan 141 ölkə arasında 58-ci yeri tutur.

Dövlət başçısının qurucu fəaliyyətindən danışarkən xüsusi qeyd etməliyik ki, ölkənin daxili problemlərini həll edəndə ciddi və güzəştsiz, xarici siyasətdə isə milli mənafelərin müdafiəçisi olur. Bir sözlə, bütün məsələlərin həllinə öz prinsipi, öz baxışı ilə yanaşan, siyasi varis kimi ona qalan irsi müasir formada, daha faydalı şəkildə inkişaf etdirməyə çalışan xarizmatik liderdir.

Rusiyalı məşhur politoloq Oleq Siqanov 2008-ci ildə "İzvestiya" qəzetində yazırdı: "Tamamilə aşkardır ki, bu gün Azərbaycan siyasətində potensial baxımdan effektivliyə görə İlham Əliyev şəxsiyyətilə uzaqdan-uzağa da olsa bərabər tutula biləcək başqa bir şəxsiyyət yoxdur".

Bugünkü qüdrətli və müstəqil, tarixi nöqteyi-nəzərdən qısa müddət ərzində əsrə bərabər inkişaf və tərəqqi yolu keçmiş Azərbaycan dövləti həm də Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 gün davam etmiş "Dəmir yumruq" hərbi əməliyyatında tarixi Zəfər qazandı. Yalnız müdrik dövlət başçısı, əsl Liderə malik xalq, iqtisadi cəhətdən güclü dayaqlara söykənən dövlət, öz rəhbəri və ordusu ətrafında sıx birləşmiş vətənpərvər nəsil belə bir möhtəşəm Zəfərə nail ola bilər. Heç şübhəsiz, xalqın sonsuz dəstəyinə və etimadına söykənən, yüksək şəxsi keyfiyyətlərə malik müdrik dövlət başçısı təkcə ölkə daxilində deyil, həm də beynəlxalq aləmdə, xüsusilə də dünya siyasətinin aparıcı aktorları, qlobal güclər arasında da böyük nüfuz sahibi olur. Son 19 il ərzində Azərbaycanın nail olduğu sürətli və hərtərəfli inkişafa, inanılmaz tərəqqiyə dünya liderləri də şahidlik edir. Mürəkkəb geosiyasi məkanda yerləşən Azərbaycan cənab İlham Əliyevin müdrik və uzaqgörən, praqmatik siyasəti nəticəsində bir-birilə ziddiyyət təşkil edən, həm siyasi, həm də iqtisadi nöqteyi-nəzərdən amansız rəqabət mübarizəsi aparan güclərin bir araya gəldiyi, dərin inam və ehtiram bəslədiyi nümunəvi ölkəyə, sakitlik və sabitlik adasına çevrilib. Və, əlbəttə, 2020-ci ildə əldə etdiyimiz Qələbə dövlətimizin təkcə sosial-iqtisadi və siyasi qüdrətini deyil, həm də böyük və güclü orduya, son iki onillik ərzində yetişmiş, ulu öndər Heydər Əliyevin ərsəyə gətirdiyi azərbaycançılıq məfkurəsi ilə böyümüş intellektual, vətənpərvər nəsilə sahib olduğunu da bütün dünyaya nümayiş etdirdi. Bütün bunlar nəhəng zəhmətin, müdrik siyasətin, sarsılmaz iradənin, dövlətinin, xalqının xoş gələcəyini düşünən və bunu həyata keçirməyə qadir olan dərin potensialın, hərtərəfli intellektin vəhdətinin nəticəsidir.

*Dövlət başçısını Liderə çevirən ilk növbədə onun zəkası, səriştəsi, diplomatik duyumu, əzmi, güclü xarakteri, prinsipiallığı, səmimiyyəti, məsuliyyəti və cəsarətidir.*

Prezident İlham Əliyev andiçmə mərasimində qarşısına qoyduğu ən ümdə məsələlərdən biri olan Azərbaycanın ərazi bütövlüyünün bərpasına da uğurla nail oldu. Dövlət başçısı hərbi müstəvidə qazandığı uğurları bu gün diplomatik müstəvidə böyük əzmlə davam etdirir.

Hazırda cənab İlham Əliyevin beynəlxalq aləmdə olan nüfuzu olduqca yüksəkdir. Rusiya Federasiyasının Prezidenti V.V.Putinin və ABŞ-ın dövlət başçısı C.R.Baydenin cənab Prezidentimizə ölkəmizin milli bayramı - Müstəqillik Günü münasibətilə göndərdikləri təbrik məktublarında da bunu aydın görmək olur.

"Ölkənizin sosial-iqtisadi inkişafda qazandığı uğurlar hamı tərəfindən qəbul edilib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində mühüm rol oynayır", - bu sözlər Rusiya dövlət başçısının təbrik məktubunda yer alır. Bu sözlər isə ABŞ Prezidenti C.R.Baydenə məxsusdur: "Ötən 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində əməkdaşlığımız tarixin mühüm anında öz bəhrəsini verir, Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində mühüm rol oynayır".

Həqiqətən də, Azərbaycan və onun lideri cənab İlham Əliyev dünya arenasında böyük nüfuz sahibidir və beynəlxalq gündəliyin bir çox aktual məsələlərin həlli ölkəmizin iştirakı olmadan təsəvvür edilə bilməz. Azərbaycan dövlətinin təkcə beynəlxalq enerji təhlükəsizliyi istiqamətində deyil, digər istiqamətlərdə atdığı addımlar da mühüm zaman kəsiyində öz bəhrəsini verir. Ölkəmiz regionda sabitləşdirici, sülhün bərqərar olunmasına xidmət edən mühüm rola malikdir.

Hazırkı Azərbaycan, onun uğurları hər birimizə böyük qürur və fəxarət hissi yaşadır. Həmişə haqqın və ədalətin tərəfdarı olan Prezident cənab İlham Əliyevin "Valday" klubu çərçivəsində təşkil olunmuş tədbirlərin birində *"Qarabağ Azərbaycandır və nida işarəsi"* deməsi, bunun təkcə sözdə deyil, real həyatda da həyata keçməsinin təmin edilməsi Müzəffər Ali Baş Komandanımızın həm müdrik siyasətçi və diplomat, həm də mahir sərkərdə olduğunu bütün dünyaya təsdiqlədi.

Bu gün Silahlı Qüvvələrimizin arsenalında olan texnikalar dövlətimizin başçısının uzaqgörənliyinin, hərbi sahəyə göstərdiyi diqqət və qayğının, əsl peşəkar yanaşma tərzinin nəticəsidir. 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər ordumuzun maddi-texniki bazasının zənginliyinin, istifadəsində olan texnika və silah-sursatın, həmçinin əsgər və zabitlərimizin hərbi biliklərinin yüksək səviyyədə olmasının təsdiqi oldu. Hər kəs Azərbaycan Ordusunun arsenalının müasir silahlarla təchiz edildiyini gördü. Burada pilotsuz uçuş aparatları, dronlar xüsusilə qeyd edilməlidir. Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan XXI əsrin yüksək texnoloji nailiyyətlərinə əsaslanan müharibəsini apardı, humanizm prinsiplərini rəhbər tutdu və layiq olduğu Zəfəri qazandı. Çünki sonda ədalət qalib gəlir, ədalətli olmaq isə hər liderə nəsib olan keyfiyyət deyil, çünki o, xalq sevgisini, böyüklüyü və müdrikliyi tələb edir.

Zəfər Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, düşmən üçün isə məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixə yazıldı. Zəfər bir daha göstərdi ki, böyük lideri, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir. Bizə bu Qələbəni yaşadan Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev gənc nəsil üçün əsl nümunədur. Prezidentimizin *"Bugünkü gənc sabah ölkəni idarə edəcəkdir"* - fikri artıq dövlət idarəçiliyinin bütün sahələrində özünü büruzə verir. Ölkə əhalisinin 30 faizdən çox hissəsini təşkil edən gənclərin hərtərəfli inkişafı məqsədilə onların dövlət idarəçiliyi sistemində iştirakının, səmərəli məşğulluğunun təmin edilməsi, potensialından dövlətimizin rifahı naminə istifadə olunması istiqamətində kompleks tədbirlərin görülməsi bu etimadın təsdiqidir.

Ulu öndərin rəhbərliyi ilə əsl dövlət idarəçiliyi məktəbi keçən cənab İlham Əliyev beynəlxalq əlaqələrin həyata keçirilməsində manevrlərdən istifadə etmək, böhranlı vəziyyətlərdə nizamlama modelləri tətbiq etmək, operativ qərarlar qəbul etmək, xaricdən informasiya təsirinin artmasını nəzərə almaq, multivariantlı idarəçilik kimi keyfiyyətlərə malikdir.

Son illər qazanılmış siyasi, sosial-iqtisadi və hərbi nailiyyətlər, milli ideyaya sədaqət qabiliyyəti bunu deməyə əsas verir. Ulu öndərin müstəqil dövlət siyasəti, onun iqtisadi, sosial və mədəni bazasının yaradılması xalqın ümidlərini tam mənasında doğrultmaqla Prezident İlham Əliyevin dövlətçilik siyasətinin təməli oldu. Xalqımızın daha yaxşı yaşamasını təmin etmək üçün stimul yaranıb. Xalq arasında ölkə başçısının şəxsiyyətini səciyyələndirən anlayışlar bunlardır: praqmatizm, müzəffərlik, çeviklik, həssaslıq, təvazökarlıq, milli maraqların ardıcıl təbliğatçısı, yüksək mənəviyyat və s.

***Gördüyü işlər, böyük təşkilatçılıq, idarəçilik qabiliyyətləri və digər parametrlər təsdiq edir ki, ölkə başçısı XXI əsrdə siyasi lider üçün zəruri keyfiyyətlərə malikdir. Dövlət başçısını Liderə çevirən ilk növbədə onun zəkası, səriştəsi, diplomatik duyumu, əzmi, güclü xarakteri, prinsipiallığı, səmimiyyəti, məsuliyyəti və cəsarətidir. Prezident İlham Əliyev Müzəffər Lider kimi xalqın daxili enerjisini ölkə qarşısında duran quruculuq məsələlərinin həllinə yönəltməklə Azərbaycanı əsaslı şəkildə dəyişdirməyə nail olub. Bu gün artıq Azərbaycan regionda lider ölkə statusu qazanıb, söz sahibidir və dünya birliyində layiqli yer tutur.***

**Hümbət MUSAYEV.**